**"Gənc İqdisadçı" Proqramı**
**6 Fevral 2019, Bakı**

# AZƏRBAYCANIN SAĞLAMLIQ TURİZMİ POTENSİALINDAN DAHA SƏMƏRƏLİ İSTİFADƏ ÜÇÜN MÖVCUD HÜQUQİ VƏ İNSTİTUSİONAL MEXANİZMLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİ







**Rəmziyyə Qurbanova**

ramziyya.qurbanova@hotmail.com

# Əsas Problem nədir?




## Sağlamlıq turizmi imkanlarından səmərəli istifadə edilməməsi

# Problemi Yaradan Səbəblər

- Əksər hallarda qiymətlərin sərfəli olmaması və yüksək qiymət qarşılığında keyfiyyətli xidmətin göstərilməməsi
- Sağlamlıq mərkəzlərinin sayının az olması
- Ölkənin tanıtımının yetərincə təşkil olunmaması
- Bir çox hallarda sağlamlıq turizmi mərkəzləri ilə xəstəxana anlayışlarının eyniləşdirilməsi
- Kadr potensialının müasir bazarın tələblərinə cavab verə bilməməsi
- Mövcud turizm infrastrukturunun turistlərin maraqlarına tam cavab verə bilməməsi
- Yeni sağlamlıq mərkəzlərinin yaradılması istiqamətində fəaliyyətlərin zəifliyi

# Sağlamlıq mərkəzlərinin və turistlərin sayı

- 1987-2016-cı illər üzrə inkişaf dinamikasının təhlili göstərir ki, bu dövr ərzində həm müəssisələrin sayı (132-dən 68-ə), həm də onlardakı yerlərin sayı (28,6 mindən 9,8 minə qədər) xeyli azalmışdır. Dövlət Statistika Komitəsinin son illərdəki göstəricilərinə görə, 2017-ci ildə müəssisələrin sayı 65, 2018-ci ilin əvvəlində isə 61 olmuşdur. Eyni zamanda yerlərin sayı qeyd olunan illər üzrə müvafiq olaraq 9,6 min və 9 min olmuşdur.

- 1987-ci ildə sanatoriya-kurort müəssisələrində istirahət və müalicə olunanların sayı 645 min nəfərə çatırdısa, 2007-ci ildə bu rəqəm cəmi 31,5 min nəfər olmuş, 2016-ci ildə isə 11450 nəfərədək azalmışdır. Bu isə 1987-ci illə müqayisədə 60 dəfəyədək azalma deməkdir.

# SİYASƏTİN ALTERNATİVLƏRİ

- Birinci alternativ- Turizm sahəsində mövcud siyasət çərçivəsində islahatlar yolu ilə sağlamlıq turizmi potensialından səmərəli istifadə edilməsi

- İkinci alternativ- Ölkənin sağlamlıq turizmi potensialının yenidən dəyərləndirilməsi və mövcud turizm potensialından səmərəli istifadə strategiyasının hazırlanması

# Birinci alternativin islahat istiqamətləri

- 1-ci istiqamət: Qiymətlərin keyfiyyətə uyğunlaşdırılması

- 2-ci istiqamət: Sağlamlıq turizmində fəaliyyət göstərən müəssisələrin insan resurslarının təkmilləşdirilməsi

- 3-cü istiqamət: Sağlamlıq turizmi çərçivəsində təbliğat və marketinq fəaliyyətlərinin təşviqi

# İkinci alternativin tətbiq mexanizmi

- Ölkənin sağlamlıq turizmi potensialının yenidən öyrənilməsi üçün xüsusi tədqiqat qrupu yaradılır
- Tədqiqat qrupunun araşdırmalarının nəticələrinə əsasən mövcud sağlamlıq turizmi potensialından səmərəli istifadə strategiyası hazırlanır
- Strategiyada hər bölgənin turizm potensialına uyğun konkret hədəflər müəyyənləşdirilir
- Strategiyaya uyğun olaraq uzunmüddətli və qısamüddətli fəaliyyət planları tərtib edilir
- Strategiyanın həyata keçirilməsinin monitorinq və qiymətləndirmə metodologiyası təsdiq edilir
- Təsdiq edilmiş metodologiya əsasında hər il strategiyanın həyata keçirilməsinin monitorinqi və qiymətləndirilməsi aparılır
- Monitorinq və qiymətləndirmənin nəticələri əsasında strategiya və fəaliyyət planları yenidən nəzərdən keçirilir və uyğun dəyişikliklər aparılır.

## Alternativin tətbiqinin üstünlükləri

- Turist sayının davamlı artmasını vəd edir
- Turizm sahəsinin ölkədə daha gəlirli sahə olmasına imkan yaradır
- Əhalinin məşğulluq səviyyəsini artırır

## Alternativin tətbiqinin çatışmazlıqları

- Daha çox maliyyə resursu tələb edir
- Alternativin hökümət tərəfindən həyata keçirilməsi uzun zaman tələb edir

# Nəticə və Tövsiyə

- Turizm sahəsində mövcud siyasət çərçivəsində islahatlar aparmaqla (qiymətlərin keyfiyyətə uyğunlaşdırılması, sağlamlıq turizmi sahəsində fəaliyyət göstərən müəssisələrin insan resurslarının təkmilləşdirilməsi, sağlamlıq turizmi çərçivəsində təbliğat və marketinq fəaliyyətlərinin təşviqi və s.) sağlamlıq turizmi potensialından səmərəli istifadəyə təşəbbüs göstərmək olar. Bu təşəbbüsün müsbət nəticələr verə biləcəyi şübhə doğurmur.
- Problemin əsaslı həlli üçün ölkənin sağlamlıq turizmi potensialının yenidən dəyərləndirilməsi, dəyərləndirmənin nəticələrinə əsasən mövcud turizm potensialından səmərəli istifadə strategiyasının hazırlanması daha konseptual yanaşma olardı. Bu səbəbdən də tədqiqat işində təklif olunan ikinci alternativə üstünlük verilməsini tövsiyə edərdik.

**DİNLƏDİYİNİZ ÜÇÜN TƏŞƏKÜR EDİRƏM**